# Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Satınalma komissiyasının bildirişi

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2024-cü il üçün xərclər smetasının 222441 – “Əsas fondlara xidmət haqqı xərcləri” yarımmaddəsi üzrə Lot 1 - Dövlət Statistika Komitəsinin inzibati binasındakı havalandırma və mərkəzləşdirilmiş kondisioner sistemlərinə, sənaye tipli kondisionerlərə qulluqla bağlı xidmətlərin satın alınması ilə bağlı 15.02.2024-cü il tarixində elan edilmiş kotirovka sorğusuna qatılan Təchizatçılardan birinin uyğunluq sənədlərinin təqdim edilməsi müddətinin 5 iş günü artırılması ilə bağlı sorğusuna əsasən “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 27.4-cü madəsinə uyğun olaraq sözügedən kotirovka sorğusu üzrə təkliflərin təqdim edilməsi müddəti 5 (beş) iş günü uzadılmışdır. Bununla əlaqədar olaraq şərtlər toplusuna dair izahat üçün son müddət 06.03.2024-cü il saat 10:00-dək, şərtlər toplusuna dəyişiklik üçün son müddət 11.03.2024-cü il saat 10:00-dək, təklifin qüvvədə olma müddəti 14.05.2024 tarixinədək müəyyən edilmişdir. Təkliflərin təqdim edilməsinin son müddəti və təkliflərin açılmasının müddəti 14.03.2024-cü il saat 10:00-dır.

Satınalma komissiyası